


# ŞƏRQ qapısı

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

*Qəzet 1921-ci ildən çıxır*

**Təsisçi:** *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 60 (23.947)

*2 aprel 2022-ci il, şənbə*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Muxtar respublikada enerji təhlükəsizliyi təmin olunub

*Muxtar respublikada müasir enerji infrastrukturunun yaradılması istiqamətində ardıcıl tədbirlər həyata keçirilir. Alternativ və bərpa olunan enerji mənbələrindən düzgün istifadə olunması, yeni su, külək, günəş elektrik stansiyalarının yaradılması istehsalın həcmini artırır ki, bu da ümumi inkişafın və enerji təhlükəsizliyimizin təmin olunmasında mühüm əhəmiyyət kəsb edir.*





Muxtar respublikada enerji sahəsinin inkişafı istiqamətində görülən işləri yüksək qiymətləndirən ölkə Prezidenti cənab İlham Əliyev demişdir: ***"Vaxtilə Naxçıvanda işıq yox idi, enerji yox idi. Azərbaycandan gələn xətlər də Ermənistan tərəfindən kəsilmişdi. İndi isə Naxçıvan özünü elektrik enerjisi ilə tam təmin edir və bərpa olunan mənbədən istifadə edir. Bu, çox önəmlidir. Çünki bu, Naxçıvanın gözəl təbiətinə və ekoloji vəziyyətinə töhfə kimi qəbul edilməlidir".***

2006-cı ildən ötən dövr ərzində 1 elektrik stansiyası yenidən qurulmuş, 9 elektrik stansiyası tikilmişdir ki, bunun da 4-ü su elektrik stansiyası, 3-ü günəş elektrik stansiyası, 1-i isə külək-günəş hibrid elektrik stansiyasıdır. Həyata keçirilən tədbirlərin nəticəsidir ki, stansiyaların sayı 11-ə, ümumi güc isə 250,5 meqavata çatdırılmışdır. Ümumi gücün 22 meqavatı Araz Su Elektrik Stansiyasının, 60 meqavatı Naxçıvan Qaz-Turbin Elektrik Stansiyasının, 87 meqavatı Naxçıvan Modul Elektrik Stansiyasının, 4,5 meqavatı Heydər Əliyev Su Anbarı üzərində Su Elektrik Stansiyasının, 22 meqavatı Biləv Su Elektrik Stansiyasının, 20,5 meqavatı "Arpaçay-1" və 1,4 meqavatı "Arpaçay-2" Su Elektrik stansiyalarının, 22 meqavatı Babək, 5 meqavatı Kəngərli, 5 meqavatı Şərur Günəş Elektrik stansiyalarının və 1,1 meqavatı isə Culfa rayonunda Külək-Günəş Hibrid Elektrik Stansiyasının payına düşür.

İstehlakçıların elektrik enerjisi ilə təchizatını daha da yaxşılaşdırmaq istiqamətində təkcə 2014-2021-ci illər ərzində muxtar respublikada 540 kilometr uzunluğunda yeni elektrik xətləri çəkilmiş, 973,4 kilometr uzunluğunda elektrik xətləri əsaslı təmir olunmuşdur. Bu dövr ərzində 254 yeni transformator quraşdırılmış,1089 transformator isə əsaslı təmir olunmuşdur. Bundan əlavə, bu sahədə maddi-texniki bazanın gücləndirilməsi istiqamətində son dövrlərdə muxtar respublikaya 2 dəst 200 kilovat gücündə "ISUZU" markalı dizel generator maşını, 410 dəst 2 kilovat gücündə mobil günəş elektrik stansiyası, 410 dəst günəş su qızdırıcısı, 6 dəst 10 kilovatlıq külək-günəş hibrid elektrik stansiyası qurğusu gətirilmişdir.

2021-ci ildə muxtar respublikada 444 milyon 804 min 6 kilovat-saat elektrik enerjisi istehsal olunmuşdur ki, bunun da 264 milyon 438 min 160 kilovat-saatı və ya 59,5 faizi istilik elektrik stansiyalarında, 129 milyon 570 min 936 kilovat-saatı və ya 29,1 faizi su elektrik stansiyalarında, 50 milyon 794 min 910 kilovat-saatı və ya 11,4 faizi isə günəş elektrik stansiyalarında istehsal edilmişdir.

Etibarlı enerji təminatının əhəmiyyətini vurğulayan Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri demişdir: ***"Hər bir ölkənin inkişafının əsas göstəricisi enerji təhlükəsizliyinin təmin olunmasıdır. Bu gün muxtar respublikanın inkişafının əsas hərəkətverici qüvvəsi elektrik enerjisinə olan tələbatın tamamilə yerli istehsal hesabına ödənilməsidir. Enerji harada varsa, orada inkişaf var, həyat var".***

Görülən işlərin davamı olaraq 2022-ci ilin yanvar-fevral aylarında Ordubad rayonunda 36 meqavat gücündə Ordubad və 15,6 meqavat gücündə Tivi Su Elektrik stansiyalarının, Şərur rayonunda 3 meqavat gücündə Günəş Elektrik Stansiyasının tikintisi davam etdirilmişdir.

Cari ilin yanvar-fevral aylarında istehlakçıların keyfiyyətli elektrik enerjisi ilə təmin olunması və infrastrukturun yenilənməsi istiqamətində muxtar respublikada 5,5 kilometr uzunluğunda 10 və 0,4 kilovoltluq yeni elektrik xətləri çəkilmiş, 2 transformator yarımstansiyası quraşdırılmışdır.

Culfa rayonunda 132/110/35/10 kilovoltluq elektrik yarımstansiyasının və Ordubad rayonunun Xanağa kəndində 35/10 kilovoltluq yarımstansiyanın tikintisi, Naxçıvan, Şərur və Babək şəhərlərində smartkarttipli elektrik sayğaclarının quraşdırılması işləri davam etdirilmişdir.

Yeni güclərin istifadəyə verilməsi istehlakçıların fasiləsiz və etibarlı enerji ilə təmin olunmasına daha yaxşı şərait yaratmaqdadır.

***Naxçıvan Muxtar Respublikası Dövlət Statistika Komitəsinin mətbuat xidməti***

## Naxçıvan teleradiosunun yaradılmasının 90 illiyi qeyd edilib



*Əvvəlcə tədbir iştirakçıları ümummilli lider Heydər Əliyevin Naxçıvan şəhərinin baş meydanında əzəmətlə ucalan abidəsini ziyarət edib, önünə güllər düzüb, ehtiramlarını bildiriblər.*

Heydər Əliyev Muzeyi ilə tanışlıq zamanı məlumat verilib ki, muzey 1999-cu ildə 420 eksponatla fəaliyyətə başlayıb. Hazırda muzeydə 5379 eksponat nümayiş etdirilir. Bildirilib ki, ulu öndər bütün sahələr kimi, mətbuat və televiziya sahəsinə də xüsusi diqqət göstərib. Muzeydə dahi rəhbər Heydər Əliyevin Naxçıvanda yaşayıb fəaliyyət göstərdiyi 1990-1993-cü illərə dair mətbuat buraxılışları, rəsmi sənəd və videoyazılar, "Şərq qapısı" qəzetinin və Naxçıvan teleradiosunun arxiv materialları, jurnalistlərlə çəkilmiş tarixi fotolar və digər dəyərli eksponatlar maraq doğurub.

Tədbir "Naxçıvan Muxtar Respublikası Televiziya və Radio Verilişləri" Qapalı Səhmdar Cəmiyyətində davam etdirilib. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsinin baş məsləhətçisi Rəmzi İbrahimov, "Naxçıvan Muxtar Respublikası Televiziya və Radio Verilişləri" Qapalı Səhmdar Cəmiyyətinin sədri Sahil Tahirli, Naxçıvan Muxtar Respublikası Televiziya və Radio Şurasının sədri Rauf Əliyev, cəmiyyətin radio verilişləri redaksiyasının baş redaktoru Nihad Bayramlı, televiziyanın gənc redaktoru Məsumə Şirəliyeva çıxış ediblər.

Bildirilib ki, Naxçıvan teleradiosu 90 ildə özünəməxsus inkişaf yolu keçib. Müstəqillik illərində teleradionun maddi-texniki bazası xeyli gücləndirilib, fəaliyyət göstərdiyi bina əsaslı yenidənqurmadan sonra istifadəyə verilib, ən müasir texniki avadanlıqlarla təchiz edilib. Muxtar respublikada yeni yayım avadanlıqlarının tətbiqi nəticəsində analoq yayım yüksəkkeyfiyyətli rəqəmsal yayımla əvəzlənib.

Vurğulanıb ki, 90 illik yolda Naxçıvan teleradiosu indiki qədər geniş yaradıcı mühit və maddi-texniki imkanlara malik olmayıb. Təkcə 2013-2020-ci illərdə Naxçıvan teleradiosuna 500 min manat dəyərində yayım və çəkiliş avadanlıqları alınıb. Yaradılan maddi-texniki imkanlar isə, öz növbəsində, yaradıcı işin keyfiyyətinə də təsir edib, televiziyanın istehsalı olan telemateriallar ümumi efirin 20-25 faizindən 70 faizə qədər yüksəldilib.

Son illərdə Naxçıvan televiziyasında qədim diyarın tarix və mədəniyyətini, görkəmli şəxsiyyətlərini, müasir həyatının əks etdirən yüzlərlə sənədli və televiziya filmi çəkilib. 2020-ci ildə 16-cı Bolqarıstan Beynəlxalq Turizm Film Festivalında "Turizm məkanı" kateqoriyası üzrə televiziyanın hazırladığı "Azərbaycanın ürəyidir Naxçıvan" sənədli filmi 24 ölkənin 54 filmi arasında birinci yerə layiq görülüb.

Qeyd edilib ki, bu gün Naxçıvan televiziyası gənc jurnalistlər üçün həm də bir məktəb rolunu oynayır. Naxçıvan Dövlət Universitetinin Jurnalistika ixtisasında təhsil alan tələbələr Naxçıvan televiziyasında təcrübə keçərək işlə təmin edilirlər.

Diqqətə çatdırılıb ki, bu gün, həmçinin muxtar respublikanın ilk informasiya agentliyi olan, yerli və xarici media orqanları üçün muxtar respublikada rəsmi dövlət informasiyasının əsas mənbəyi sayılan "Nuhçıxan" İnformasiya Agentliyinin də 4 yaşı tamam olur. Fəaliyyət göstərdiyi 4 il müddətində 62 minə yaxın xəbər hazırlanaraq agentliyin saytında yerləşdirilib. Təqdim etdiyi dəqiq, operativ informasiyalarla "Nuhçıxan" informasiya məkanında öz layiqli yerini qazanıb, minlərlə izləyicinin istinad mənbəyinə çevrilib.

Qeyd olunub ki, müstəqillik illərində Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun diqqət və qayğısı ilə Naxçıvan teleradiosu böyük inkişaf yolu keçib, teleradio müstəqil kanalda yayımlanmağa başlayıb. Çıxışlarda Ali Məclis Sədrinin Naxçıvan teleradiosu barədə fikirləri bir daha xatırlanıb: ***"Biz hələ 1996-cı ildən Naxçıvan televiziyası və radiosunun ayrıca kanalda yayımlanması üçün çalışırdıq. Lakin bunun üçün çoxlu vəsait lazım idi. O vaxt maliyyə çətinlikləri bu işi yubatsa da, biz bu arzumuzu həyata keçirə bildik. Çünki televiziya da məktəb qədər vacibdir".***

Çıxış edənlər 90 illik münasibətilə kollektivi təbrik edib, muxtar respublikada media fəaliyyətinə hərtərəfli dəstək və qayğısına görə Ali Məclisin Sədrinə minnətdarlıqlarını bildiriblər.

Tədbirdə "Nuhçıxan" İnformasiya Agentliyinin baş redaktoru Gülməmməd Əliyev, rejissor Faiq Musayev çıxış edərək bildiriblər ki, dövlətimiz tərəfindən teleradioda müasir iş şəraiti yaradılıb.

Sonra işində fərqlənən əməkdaşlara – İlkin Rzayevə, İsmayıl İbrahimova, Ramilə Kazımovaya, Samirə Rzayevaya, İlham Vəliyevə və Lətifə Həsənovaya fəxri fərmanlar təqdim edilib.

Sonda Naxçıvan teleradiosunun fəaliyyətini əks etdirən videoçarx nümayiş etdirilib.

**Xəbərlər şöbəsi**

*Heydər Əliyev Uşaq-Gənclər Yaradıcılıq Mərkəzində Təhsil Nazirliyi və Rəssamlar Birliyinin birgə təşkilatçılığı ilə "Məktəblilərin təsviri və dekorativ-tətbiqi sənət müsabiqəsi"nin yekun tədbiri keçirilib.*

## "Məktəblilərin təsviri və dekorativ-tətbiqi sənət müsabiqəsi"nə 505 şagirdin 1812 əl işi çıxarılıb



Tədbirdə çıxış edən Naxçıvan Muxtar Respublikasının təhsil naziri Rəhman Məmmədov bildirib ki, təsviri və dekorativ-tətbiqi sənət qədim tarixi köklərə və zəngin ənənələrə malikdir. Təhsil Nazirliyi və Rəssamlar Birliyi tərəfindən keçirilən müsabiqə qədim sənət növlərinin müasir dövrdə inkişafına, muxtar respublikada gedən yaradıcılıq proseslərinin, qazanılan uğurların şagirdlər arasında geniş təbliğinə, eləcə də istedadlı şagirdlərin bacarıqlarını inkişaf etdirmələrinə öz töhfəsini verir. 2019-2020-ci tədris ilindən keçirilən "Təsviri və dekorativ-tətbiqi sənət müsabiqəsi" xalq sənətkarlığı nümunələrinin nümayişi və təbliği işinə, xalq bədii sənətkarlığı ənənələrinin yaşadılmasına mühüm stimul oldu.

Rəhman Məmmədov qeyd edib ki, muxtar respublikanın bütün məktəblərini əhatə edən müsabiqədə 505 şagirdin rəsm, toxuma, tikmə, mis üzərində döymə, ağac üzərində yandırma, oyma və digər janrlarda hazırladıqları 1812 əl işi nümayiş olunub. Şagirdlərin təqdim etdikləri sənət əsərləri arasında maraqlı, baxımlı, sənət meyarlarına cavab verən dekorativ-tətbiqi və təsviri sənət əsərləri az deyil.

Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin sədri, Azərbaycan Respublikasının Əməkdar rəssamı Ülviyyə Həmzəyeva çıxış edərək belə müsabiqələrin istedadlı yeniyetmə və gənclərin qabiliyyətlərinin düzgün istiqamətləndirilməsi, muxtar respublikada təsviri incəsənətin, xalq yaradıcılığının inkişafı baxımından əhəmiyyətindən danışıb.

Tədbirdə Heydər Əliyev Uşaq-Gənclər Yaradıcılıq Mərkəzinin dərnək rəhbəri, Naxçıvan Muxtar Respublikasının Əməkdar rəssamı Səyyad Bayramov və mərkəzin dərnək üzvü, müsabiqənin təsviri sənət üzrə I yerinin qalibi Nərmin Ələkbərova çıxış edərək muxtar respublikada şagirdlərin asudə vaxtlarının səmərəli təşkili üçün görülən işlərdən bəhs edib, bu sahəyə göstərilən qayğıya görə dövlətimizə minnətdarlıqlarını bildiriblər.

Sonra müsabiqənin şərtlərinə uyğun olaraq yekun mərhələdə təsviri və dekorativ-tətbiqi sənətin hər biri üzrə bir I, iki II, üç III və altı həvəsləndirici yer olmaqla, ümumilikdə, 22 şagird təşkilatçılar tərəfindən diplom və hədiyyələrlə mükafatlandırılıb.

Sonda müsabiqəyə təqdim edilən əl işlərindən ibarət sərgiyə baxış olub.

***Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin mətbuat xidməti***

## "Müasir dövr və rəqəmsal iqtisadiyyat" mövzusunda elmi konfrans olub



"Naxçıvan" Universitetinin və Naxçıvan Muxtar Respublikası Dövlət Vergi Xidmətinin birgə təşkilatçılığı ilə keçirilən konfransda "Naxçıvan" Universitetinin Tədris və tərbiyə işləri üzrə prorektoru, iqtisad üzrə fəlsəfə doktoru Hüseyin Bağırsoylu bildirib ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Sərəncamı ilə təsdiq edilmiş "2019-2022-ci illərdə Naxçıvan Muxtar Respublikasında rəqəmsal ödəniş xidmətlərinin tətbiqinin və nağdsız hesablaşmaların genişləndirilməsi üzrə Proqram"ın icrasına dair tədbirlər planının müvafiq bəndinə uyğun olaraq "Naxçıvan" Universitetində aidiyyəti dövlət orqanları ilə birlikdə müntəzəm olaraq maarifləndirici tədbirlər həyata keçirilir.

Vurğulanıb ki, muxtar respublikamızın bütün regionları sürətli internet və elektron ödənişlərin həyata keçirilməsi üçün lazımi vasitələrlə təmin edilib. Buna görə də universitetin professor-müəllim heyətinin, tələbələrinin yaradılmış şəraitdən və bu xidmətlərdən səmərəli istifadə imkanlarının genişləndirilməsi istiqamətində keçirilən maarifləndirici seminarlar, konfranslar xüsusi əhəmiyyət kəsb edir.

Naxçıvan Muxtar Respublikası Dövlət Vergi Xidmətinin bölmə rəisi Ülvi Qurbanov məruzəsində bildirib ki, hazırda ölkəmizdə aparılan islahatlar, dövlət və özəl sektor tərəfindən icra edilən proqramlar rəqəmsal iqtisadiyyat quruculuğu üçün mühüm baza formalaşdırır. Naxçıvan Muxtar Respublikasında vergi sisteminin inkişafına daim diqqət göstərilib, dövlət idarəçiliyinin müasir standartlara uyğunlaşdırılması istiqamətində təkmilləşdirmələr aparılmaqla vergi orqanları ilə vergiödəyiciləri arasında texnoloji baxımdan mükəmməl elektron əlaqələrin yaradılması, müasir kompüter və proqram təminatları, geniş təhlil bazasına malik informasiya sistemlərinin qurulması istiqamətində işlər görülüb.

Naxçıvan Muxtar Respublikası Dövlət Vergi Xidmətinin şöbə rəisi Elçin Babayev bildirib ki, rəqəmsal ödəniş sistemi müasir dünyanın əsas iqtisadi çağırışlarından biri olmaqla vergi sisteminin təkmilləşdirilməsində, maliyyə sabitliyinin və ümumilikdə, iqtisadi inkişafın təmin edilməsində mühüm əhəmiyyətə malikdir. Diqqətə çatdırılıb ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2019-cu il 9 avqust tarixli Sərəncamına əsasən təsdiq olunan "2019-2022-ci illərdə Naxçıvan Muxtar Respublikasında rəqəmsal ödəniş xidmətlərinin tətbiqinin və nağdsız hesablaşmaların genişləndirilməsi üzrə Proqram"ı üzrə qarşıya qoyulmuş məqsəd və vəzifələrin yerinə yetirilməsi nəticəsində 2019-cu illə müqayisədə 2021-ci ildə nağdsız ödənişlərin həcmində 73 497 827 manat artım müşahidə olunub. 1 mart 2022-ci il tarixə muxtar respublika ərazisində quraşdırılan bankomatların sayı 116-ya, POS-terminalların sayı 1554-ə, ödəniş terminalların sayı isə 56-sı MilliÖn ödəniş terminalı olmaqla, 150-yə çatdırılıb.

Sonda suallar cavablandırılıb.

***"Naxçıvan" Universitetinin mətbuat xidməti***

*"Naxçıvan Qarnizonu Qoşunlarının 2022-ci tədris ilinin uzlaşma planı"na əsasən komanda-qərargah təlimi keçirilir.*

## Komanda-qərargah təlimi keçirilir



Komanda-qərargah təliminin ssenarisinə uyğun olaraq müxtəlif döyüşə hazırolma dərəcələrinə gətirilən Naxçıvan Qarnizonu Qoşunlarının birləşmə və hissələri "Həyəcan" siqnalı ilə qaldırılıb.

Təlimdə komandir heyətinin yaranmış taktiki şəraitə uyğun qısa müddətdə qərar qəbul edib aktiv radioelektron mübarizə şəraitində yuxarı qərargaha məruzə etməsinə, tabelikdə olanlara çatdırmasına, döyüşün təşkili üzrə bacarıq və vərdişlərin təkmilləşdirilməsinə xüsusi diqqət yetirilib.

Çətin keçilə bilən dağlıq ərazilərdə aşkar edilən şərti düşmənin terror qruplaşmaları xüsusi həmlə qruplarımız tərəfindən dronların və pilotsuz uçuş aparatlarının dəstəyi ilə məhv edilib və hakim yüksəkliklər ələ keçirilib.

Tank təhlükəli istiqamətlərdə açılma hədlərini tutan tank əleyhinə bölmələrimiz tərəfindən düzünə və yarımdüzünə tuşlama ilə şərti düşmənin zirehli texnikaları məhv edilib.

Aviasiya ilə qarşılıqlı əlaqə suallarının işlənildiyi təlimdə hava hücumundan müdafiə bölmələri şərti düşmənin hava hücum vasitələri və pilotsuz uçuş aparatlarına qarşı fəaliyyətləri icra ediblər.

Qərargahlar üçün əməliyyat şəraitinin daha da mürəkkəbləşdirilməsi məqsədilə əlavə qüvvələrin cəlb edildiyi komanda-qərargah təlimi davam edir.

**Nəriman NƏCƏFOV**

## Naxçıvan şəhərində yeni ünvan lövhələrinin quraşdırılması davam etdirilir



Muxtar respublikanın yaşayış məntəqələrində nəqliyyat infrastrukturu və daşınmaz əmlak obyektlərinə ünvanların verilməsi, eləcə də ünvan reyestrində müvafiq düzəliş və dəqiqləşmə işlərinin aparılması diqqət mərkəzində saxlanılır. Bu məqsədlə daşınmaz əmlak obyektlərinin ünvanlarındakı uyğunsuzluqların aradan qaldırılması üçün kameral şəraitdə ünvan xəritəsi üzərində iş aparılır. Yeni inşa olunan daşınmaz əmlak obyektlərinin sxematik planları dəqiqləşdirilir, ünvan xəritəsinə yerləşdirilməsi və ünvan reyestrində qeydiyyata alınması təmin olunur.

Naxçıvan şəhərində prospekt və küçələrdə binalara yeni və müasir dizaynlı ünvan lövhələri və giriş nömrə nişanlarının quraşdırılması davam etdirilir. Hazırda şəhərin 54-cü, 56-cı, Xətai və Əlincə məhəllələrində yeni hazırlanmış 2400-dən artıq ünvan lövhəsi və giriş nömrə nişanlarının quraşdırma işləri aparılır.

Qeyd edək ki, layihənin həyata keçirildiyi gündən, ümumilikdə, Naxçıvan şəhərinin 1 prospekt, 71 küçə, 30 məhəllə və 1 kəndi olmaqla, 103 nəqliyyat infrastrukturu obyektində 10 minə yaxın ünvan lövhəsi və giriş nömrə nişanları quraşdırılmışdır.

Layihənin həyata keçirilməsi vətəndaşlara və hüquqi şəxslərə ünvan məlumatlarına çevik, vahid və etibarlı çıxış əldə etmək, internet əsaslı elektron xidmətlərdən istifadə, ünvanların asan tapılması, sosial və idarəetmə məsələlərinin həlli zamanı vaxt itkisinin aradan qaldırılması imkanı verəcəkdir.

***Naxçıvan Muxtar Respublikası Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Xidmətinin mətbuat xidməti***

## Şagirdlərin dövri tibbi, flüoroqrafik müayinə və tuberkulin test sınaqlarına start verilib

*Muxtar respublika ərazisində yaşayan uşaq əhalisinin kütləvi dövri tibbi müayinələrinin aparılmasını və dispanserizasiyasını təmin etmək məqsədilə ardıcıl tədbirlər görülür.*



Bu məqsədlə Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin iş planına uyğun olaraq hər il yaz və payız mövsümlərində tam orta məktəblərin şagirdləri arasında profilaktik xarakteri daşıyan dövri tibbi yoxlamalar, flüoroqrafik müayinə və tuberkulin test sınaqları aparılır. Bu tədbirlər Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2018-ci il 9 oktyabr tarixli Sərəncamı ilə təsdiq olunmuş "Naxçıvan Muxtar Respublikasında uşaqların icbari dispanserizasiyadan keçirilməsinə dair 2018-2022-ci illər üçün Dövlət Proqramı"nın tələblərinə uyğun olaraq həyata keçirilir.

Yaz mövsümünün profilaktik tibbi müayinələri aprelin 1-dən ayın sonunadək davam etdiriləcək. Müayinələrin normal təşkili üçün əvvəlcədən cədvəllər tərtib olunaraq məktəblərə göndərilib. Orta məktəblərdə çalışan tibb işçiləri ilə təlimati söhbətlər aparılıb, lazımi izahatlar verilib. Şagirdlər əvvəlcədən məktəb həkimləri tərəfindən müayinələrdən keçərək qruplaşdırılıb. Əvvəlki illərdə olduğu kimi, bu il də şagirdləri yaz mövsümünün dərin tibbi müayinələri ilə əhatə etmək məqsədilə həkim-pediatr, stomatoloq, cərrah, LOR və digər ixtisaslı həkimlərdən ibarət briqadalar təşkil edilib. Əziz Əliyev adına Naxçıvan Muxtar Respublikası Mərkəzi Uşaq Xəstəxanası tərəfindən yaradılmış həkim briqadaları dərin tibbi müayinələrə Naxçıvan şəhərindəki 8 nömrəli, tuberkulin test sınaqlarına isə 1, 2, 3, 4, 5, 7 nömrəli tam orta məktəblərdə və Qızlar Liseyində start verib. Xəstəliyi dəqiqləşdirilən şagirdlər üçün müvafiq konsultasiyalar, eləcə də lazımi müalicə tədbirləri təşkil olunacaq.

Tədbirdə, həmçinin uşaq və yeniyetmələrin şəxsi və ümumi gigiyenik qaydaları haqqında maarifləndirici söhbətlər aparılıb.

***Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat xidməti***

## Yaz-tarla işləri sürətlə aparılır

*Fevralın 25-də Naxçıvan Muxtar Respublikasında təsərrüfat işlərinə hazırlıq və qarşıda duran vəzifələr barədə keçirilən müşavirədə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov deyib:* ***"Yaz-tarla işlərinin düzgün təşkil olunması bol məhsul istehsalına təminat verir. Ona görə də Kənd Təsərrüfatı Nazirliyi muxtar respublikanın ayrı-ayrı kənd təsərrüfatı bitkiləri üzrə əkin tələbatını müəyyənləşdirməli, mütərəqqi əkin metodlarına üstünlük verilməli, torpaq mülkiyyətçiləri mövsümi aqrotexniki qaydalar barədə məlumatlandırılmalıdır. Torpaq mülkiyyətçilərinin keyfiyyətli və məhsuldar toxumlarla təminatı da diqqətdə saxlanılmalı, toxum ehtiyatının həcmi təhlil olunmalı, "Naxçıvan Toxumçuluq Mərkəzi" publik hüquqi şəxs tərəfindən bu istiqamətdə müvafiq tədbirlər görülməli, xarici ölkələrdən gətirilən toxumların keyfiyyətinə diqqət yetirilməlidir".***

Ali Məclis Sədrinin bu tövsiyələri muxtar respublikada məhsul bolluğu yaradılmasına, daxili bazarın qorunmasına, torpaqlardan səmərəli istifadəyə istiqamətlənən ciddi tapşırıqlardır. Bu tapşırıqların yerinə yetirilməsində zəhmət adamlarının üzərinə mühüm vəzifələr düşür. Onlar da bunu dərindən dərk edir, yaradılan şəraitdən səmərəli istifadəyə səy göstərirlər. Artıq yazın gəlişi ailə təsərrüfatlarını, sahibkarları yenidən torpaqla təmasa çağırmaqdadır. Əslində, bu qiymətli sərvətlə bağlı insanlar elə qışboyu da torpaqdan bir o qədər aralı düşməyiblər. Mövsümi tədbirləri – əkin sahələrinin kolkosdan təmizlənməsini, şum qaldırılmasını, üzvi gübrə səpilməsini diqqətdə saxlayıblar. Həmin işləri vaxtlı-vaxtında görməyə çalışıblar ki, yaz əkinlərini gecikdirməsinlər.

Muxtar respublikada əkinçilik məhsulları istehsalında ilk yerdə qərarlaşan Şərur rayonu ötən təsərrüfat ilini uğurla başa vurub. Təbii-coğrafi şəraitdən, münbit torpaqlardan və hərtərəfli dövlət dəstəyindən səmərəli istifadə olunması hesabına rayonda 2021-ci ildə 177 milyon 740 min manatlıq kənd təsərrüfatı məhsulları istehsal edilib. Bu, 2020-ci illə müqayisədə 6 faiz çoxdur.

Bəhs olunan dövrdə rayonun zəhmət adamları əkinçiliyin müxtəlif sahələrində, meyvəçilik və üzümçülükdə, heyvandarlıqda yüksək göstəricilərə nail olublar.



Ötən il 16 min 234 hektar sahədə əkin aparılıb, yenə də taxılçılığa böyük önəm verilib, 3 min 866 hektar sahədə taxıl əkilib. Mövsüm ərzində bütün aqrotexniki tədbirlər vaxtlı-vaxtında yerinə yetirilib, çəkilən zəhmət hədər getməyib; orta hesabla hər hektardan məhsuldarlıq 40,5 sentner olub. Rayonda meyvəçiliyin və tərəvəzçiliyin inkişafına da xüsusi diqqət yetirilir; müvafiq Dövlət proqramının qəbulu isə bu sahələrdə yeni uğurlar qazanmasını təmin edib. Belə ki, 5 hektar sahədə yeni meyvə bağları salınıb, 5,5 hektar meyvə bağında isə bərpa işləri aparılıb. Yaşıllaşdırma tədbirlərində 55 mindən çox müxtəlif ağac tingləri və gül kolları əkilib. Sahibkarlar tərəfindən isə xüsusi mülkiyyətdə olan və həyətyanı torpaq sahələrində 40 hektardan yuxarı sahədə müxtəlif növlər üzrə meyvə bağları salınıb. Barverən meyvə bağlarından 20 min 854 ton məhsul əldə edilib. Üzüm bağları da torpaq mülkiyyətçilərinin zəhmətini "itirməyib"; bağlardan 1618 ton məhsul götürülüb. Tütünçülük üçün münbit torpaqları, əlverişli təbii-iqlim şəraiti olan rayonda bu sahənin inkişafı istiqamətində də lazımi tədbirlər görülüb, 4,4 hektar sahədə tütün əkini həyata keçirilib, 9,8 ton quru tütün istehsal olunub.

Əhalinin meyvə-tərəvəz məhsullarına olan tələbatını ilboyu ödəmək üçün ötən illər ərzində dövlət maliyyə dəstəyi və özəl investisiya qoyuluşu hesabına ümumi tutumu 7 min 856 ton olan 26 soyuducu anbar tikilib və 37 kənddə ümumi sahəsi 32 hektara yaxın olan istixana kompleksləri fəaliyyət göstərir. 2021-ci ildə rayonun təsərrüfatçıları tərəfindən 555 tona yaxın qarğıdalı Türkiyə Respublikasına, 610 tondan çox kartof, 140 tondan artıq isə qarğıdalı Bakı şəhərinə ixrac edilib.

Ailə təsərrüfatlarının iqtisadi inkişafdakı rolu getdikcə artır. Bunu nəzərə alaraq muxtar respublikamızda onların fəaliyyətlərinin stimullaşdırılması və genişləndirilməsi üçün güzəştli kreditlərin verilməsi diqqətdə saxlanılır. Sahibkarlığa Yardım Fondu tərəfindən rayonda fəaliyyət göstərən 24 ailə təsərrüfatçısına 402 min 500 manat dəyərində kredit verilməsi cari ildə belə təsərrüfatların sayının artmasına təsirini göstərəcək. Naxçıvan şəhərində keçirilən müxtəlif satış-yarmarkalarında rayonun təsərrüfatçılarının öz məhsulları ilə təmsil olunması da belə təsərrüfatlara qayğının ifadəsidir.

Arıçılıqla məşğul olanların da sayı ilbəil artmaqdadır. Bölgədə ekoloji durumun səviyyəsi yüksəkkeyfiyyətli məhsul istehsalına imkan verir; belə imkanlar bu sahəyə marağı ilbəil artırır.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Sərəncamı ilə təsdiq olunmuş "2017-2022-ci illərdə Naxçıvan Muxtar Respublikasında arıçılığın inkişafı üzrə Dövlət Proqramı" isə bu istiqamətdə daha mühüm əhəmiyyət kəsb edir. Proqramın uğurlu icrası arı ailələrinin sayının artması və bu sahədə məhsuldarlığın daha da yüksəldilməsi ilə nəticələnib, 2 arıçılıq təsərrüfatı yaradılıb. Hazırda rayonda 597 arı təsərrüfatında 12 min 978 arı ailəsi vardır.

Rayondan aldığımız məlumatlarda bildirilir ki, ötən il qazanılan uğurlar torpaq adamlarını bu il daha yüksək nəticələr əldə etməyə ruhlandırıb. Əkinçilikdə zəngin təcrübə qazanan şərurlular münasib hava şəraitindən bacarıqla istifadə etməyə səy göstərərək aprel ayının 1-dək 689 hektar sahədə əkin keçiriblər. Belə ki, 242 hektar sahədə kartof, 113 hektar sahədə soğan, 9 hektar sahədə digər tərəvəz, 2 hektar sahədə paxlalı bitkilər, 9 hektar sahədə qarğıdalı, 1 hektar sahədə bostan məhsullarının əkinləri aparılıb; heyvandarlığın inkişafı üçün 239 hektar sahədə yonca əkilib.

Rayonda yazlıq arpa əkinlərinə də başlanıb, 72 hektar sahədə əkin keçirilib, 2 hektar sahədə isə buğda əkilib. Onu da qeyd edək ki, torpaq mülkiyyətçiləri keyfiyyətli və məhsuldar toxum sortlarından istifadəyə üstünlük verirlər.

Təsərrüfatın digər sahələrində də mövsümi tədbirlər davam etdirilməkdədir. Mal-qaraya zoobaytar qaydalarda qulluq göstərilməsi, döl kampaniyasının uğurla başa çatdırılması üçün baytarlıq xidmətinin əməkdaşları öz vəzifə borclarını lazımınca yerinə yetirməyə çalışırlar. Mövsümə uğurla başlayan torpaq adamlarının yaz-tarla işlərini vaxtında yekunlaşdırmaq üçün bütün qüvvələrini səfərbər etmələri belə deməyə əsas verir ki, 2022-ci təsərrüfat ili də uğurla başa çatdırılacaq.

**Muxtar MƏMMƏDOV**

## Naxçıvan dünən

# “Söyüdlü arx”ın harayı

Son iki ildə muxtar respublikamızın ərazisində təbiətə yamanca qəsd edilir. Buna bir səbəb vaxtında camaatın yanacaqla, təbii qazla, istiliklə təmin edilməməsidirsə, digər səbəbi isə cəzasızlıqdan doğan özbaşınalıqdır. İndi dünyanın hər yerində təbiətin mühafizə olunmasına, qorunmasına, ekologiya problemlərinin həll edilməsinə diqqət və qayğı artırılmışdır. Təəssüf ki, respublikamızın düşdüyü vəziyyət 6 ildən bəri davam edən erməni təcavüzü və bir də ölkəmizin daxilində ayrı-ayrı qüvvələrin günahı üzündən tarazlığın pozulması təbii sərvətlərimizin talan edilməsinə, sıradan çıxmasına, meşələrin, yaşıllıqların məhv edilməsinə gətirib çıxarmışdır. Onsuz da muxtar respublikamızda təbii meşələr olduqca azdır. Hər nəfərə düşən yaşıllıq sahəsinə görə respublikamız dünyada axırıncı yerlərdən birini tutur.

Ötən ilin sərt qış günlərində soyuqdan donmamaq üçün nəinki kəndlərdə, şəhərlərdə belə, bağlarda, parklarda, həyətlərdə, küçə və meydanlarda ağacların kütləvi şəkildə kəsilib yandırılmasına yol verilmişdir. Təəssüf ki, bahar aylarında yeni tinglər salınmasına lazımınca qayğı göstərilməmiş, yaxşı ənənələrə malik olan iməcilik tədbirləri yaddan çıxmışdır... İnsanları da qınamaq olmaz. Axı insan həmişə əli yananda ağzına yaxınlaşdırır. İndi küçələrdə kötüklərin yeni cərgəsi, bağ və parklarda isə talalar əmələ gəlmiş, Əcəmi seyrəngahındakı iki-üçillik ağacların belə, gövdəsinə balta çalınmışdır. Naxçıvan şəhərinin “Azərbaycan” küçəsində 40-50 illik qovaq, göyrüş, akasiya, tut və söyüd ağaclarından indi əsər-əlamət yoxdur.

Yaşıllıq zolaqlarına, təbii meşələrə də balta qaldırılır. Araz dəryaçası boyunca uzanıb gedən yurğunluqlar, civirliklər indi, demək olar ki, tükənməkdədir. Tunbul kəndinin yaxınlığında, Araz dəryaçasının vadisində uzanıb gedən “Söyüdlü arx” son günlərini yaşayır. İndi burada traktorlarla, digər güclü maşınlarla söyüd ağacları kökündən çıxarılır. Keçən il həmin yerdə kəsilən söyüdlərin əvəzinə biri belə, salınmamışdır. Adamın ürəyini ağrıdan da odur ki, indiyədək bir ağac əkməyənlər qışı bəhanə edib qollu-budaqlı ağacların ömrünə balta, xizər çəkirlər.

...İndi özümüz sağlamlığımızın, gözəlliyimizin qəsdinə durmuşuq. Hamılıqla “Söyüdlü arx”ın fəryadını eşidib insafa, mürvətə gəlməliyik...

***“Şərq qapısı” qəzeti***
***9 fevral 1994-cü il***

*Görkəmli təbiətşünas alim, akademik Həsən Əliyev deyirdi ki, təbiət musiqi mənbəyi, şeir, sənət guşəsi, ilham çeşməsidir. Təbiət ən gözəl müalicə vasitəsi, ən gözəl loğmandır. Bəli, təbiətin məziyyətlərini, insanoğluna bəxş etdiklərini saymaqla bitib-tükənməz. Amma təəssüf ki, ötən əsrin 90-cı illərinin məlum hadisələri diyarımızın füsunkar təbiətini əli həyatdan üzülmüş, miskin görünüşlü, bədbin libaslı bir məzluma çevirmişdi. Muxtar respublikanın muxtariyyət tarixinə yaxından şahidlik edən “Şərq qapısı” qəzetinin bir sıra nömrələrində yer alan yazılardan, o cümlədən də 9 fevral 1994-cü il tarixdə işıq üzü görən “Söyüdlü arx”ın harayı” məqaləsindən də təbiətin ah-fəğanını, fəryad səslərini duymaq çətin deyil. Yazıda təbiətin məhvinə səbəb kimi iki amil əsas götürülür: insanların lazımi yanacaqla, təbii qazla, istiliklə təmin edilməməsi və təbii sərvətlərin mühafizəsi tədbirlərinin görülməməsi, təbiətə həssas münasibətin formalaşmaması...*

## və bu gün

# “Söyüdlü arx”ın harayından “Hərəmiz bir ağac əkək” adlı birlik nəğməsinə...

Gəlin gün ötdükcə daha da müasirləşən, böyük inkişaf yolu qət edən muxtar respublikamızın timsalında zamanla təbiətə münasibətin də necə dəyişildiyinə nəzər yetirməyə çalışaq. İlk olaraq “Söyüdlü arx”ın harayı” məqaləsindəki təbiətin faciəsinə səbəb kimi birinci amili, yəni insanların lazımi yanacaqla, təbii qazla, istiliklə təmin edilməməsi məsələsinə qısaca toxunmaq istərdim. Bu baxımdan, xüsusilə qeyd etmək lazımdır ki, ölkəmizdə, o cümlədən də muxtar respublikamızda bütün sahələrdəki intibah, tərəqqi proseslərinin təməlində ümummilli liderimiz Heydər Əliyev siyasəti dayanır. Məhz siyasi sadiqlik nəticəsində bu konsepsiyanın əsas götürülməsi Naxçıvanın qısa zamanda böyük inkişaf yoluna qədəm qoyması üçün geniş imkanlar açdı. Və beləliklə də, illər öncə yaşıllaşdırma tədbirləri ilə paralel geniş infrastruktur layihələrinin də icrasına başlanıldı, insanların rahatlığı naminə, müəssisə və təşkilatların əlverişli fəaliyyəti üçün onlarla yeni bina ucaldıldı, yollar abadlaşdırıldı, yeni tikililərin həyətləri, səkilər ağaclarla, güllərlə bəzədildi. İnsan amili, onun layiqli yaşamaq hüququnun əsas götürüldüyü vahid quruculuq planı üzrə perspektiv imkanlar nəzərə alınaraq ən ucqar kəndlərdən mərkəzə doğru bütün yaşayış məntəqələri bir neçə il ərzində mavi yanacaqla təmin olundu. Nəticədə, əvvəllər ilin soyuq dövrlərində yararsız, his qoxan binalardakı əlacsızlıqdan gövdəsinə balta vurulan ağacların “fəryad qopardığı” sobalar söküldü, neft qoxan məktəblərdə, digər müəssisələrdə müasir qazanxana sistemi quruldu, qaynar tədris prosesi, səhiyyə, mədəniyyət ocaqlarında səmərəli iş fəaliyyəti bərqərar edildi, bütün sosial problemlər həllini tapdı.

Bütün sahələrdə olduğu kimi, təbiətə qayğı, onu qoruyub saxlamaq, yaşıllıqları artırmaq kimi qlobal məsələnin həllinin təməlində də məhz “İnsanları təbiətin övladı” kimi dəyərləndirən ulu öndər Heydər Əliyev şəxsiyyəti, onun böyük uzaqgörənliklə əsasını qoyduğu misilsiz işlər dayanır. ***“Təbiətin ölkəmizə bəxş etdiyi zəngin sərvətlərə xüsusi qayğı ilə yanaşmaq, belə misilsiz xəzinələri bəşəriyyətin gələcəyi naminə qorumaq üzərimizə düşən başlıca vəzifələrdəndir”***, – deyən ümummilli liderimiz ötən əsrin sonlarında məlum səbəblər üzündən biçarə insanların gövdəsinə balta vurduqları yüz illərin şahidi olan ağacların yaratdığı və “təbiət qəbiristanlığı” adlandırdığı mənzərənin aradan qaldırılması üçün tövsiyələr verib, insanları ağac əkib, bağ salmağa dəvət etmişdi. 1969-1982 və 1993-2003-cü illərdə respublikamıza rəhbərlik etdiyi dövrlərdə ekologiya və ətraf mühitin mühafizəsi sahəsində mühüm qanunlar və qərarlar qəbul edərək bu istiqamətdə çox böyük dəyişikliklər həyata keçirən görkəmli dövlət xadiminin 1993-cü il aprelin 2-də qəbul etdiyi tarixi qərarla muxtar respublika ərazisində başlanan yaşıllaşdırma tədbirlərinin nəticəsidir ki, bu gün “təbiət qəbiristanlığı” ifadəsinin yerini dillərdən düşməyən, oğuz yurdunun rəmzinə çevrilən “Füsunkar şəhər, cənnətməkan diyar” sözləri əvəzləyib.

Ölkəmizdə yaşıllaşdırma işlərinin planlı şəkildə həyata keçirilməsi üçün 2003-cü il fevralın 18-də “Azərbaycan Respublikası meşələrinin bərpa edilməsi və artırılmasına dair Milli Proqram” qəbul edilmiş və Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafına dair Dövlət proqramlarında bu sahədə tədbirlərin görülməsi nəzərdə tutulmuşdur. Ayrı-ayrı illərdə qəbul olunan Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafı, meyvəçiliyin və tərəvəzçiliyin inkişafı üzrə Dövlət proqramlarına uyğun olaraq yeni meşə massivlərinin, yaşıllıq zolaqlarının, meyvə bağlarının salınması və bununla bağlı digər tədbirlər bu gün də ardıcıllıqla davam etdirilir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2006-cı il 15 avqust tarixli Sərəncamına əsasən ilk dəfə olaraq muxtar respublikamızın flora və faunasına dair iki cilddən ibarət “Qırmızı kitab” çap edilib. Xüsusi gözəlliyi ilə seçilən təbiət abidələri qeydiyyata alınaraq pasportlaşdırılıb. Ötən dövrdə qoruqlar, xüsusi mühafizə olunan təbiət əraziləri yaradılıb, hər bir bölgəmizdə “Gənclər bağı” salınıb. Hər il mütəmadi olaraq təşkil edilən ekoloji tədbirlər, iməciliklər vasitəsilə minlərlə ağac tingi əkilir, gülkarlıqlar yaradılır.



“Söyüdlü arx”ın harayı” məqaləsində yer alan *“İndi küçələrdə kötüklərin yeni cərgəsi, bağ və parklarda isə talalar əmələ gəlmiş, Əcəmi seyrəngahındakı iki-üçillik ağacların belə, gövdəsinə balta çalınmışdır. Naxçıvan şəhərinin “Azərbaycan” küçəsində 40-50 illik qovaq, göyrüş, akasiya, tut və söyüd ağaclarından indi əsər-əlamət yoxdur”* fikirləri də elə acı xatirə kimi arxivin bir küncündə qalıb. İndi yaşıllıqlara bürünərək gözəllik işığı kimi parlayan Əcəmi seyrəngahı mədəni-kütləvi tədbirlərin sevimli məkanına, sənətkarların ilham ocağına çevrilib. Günün istənilən vaxtında xüsusi landşaft dizaynına malik, əsrlərin sərt sınaqlarına sinə gərən, köksündə illərin həsrətini, sevincini, kədərini gizlədən qocaman çinar ağaclarının çətir tutduğu küçə, prospekt, park və xiyabanlardan yolunu salsan, təbiətə qayğı nümunəsinin şahidi olarsan. Şəhərimizdəki yaşıllıq ərazilərinin miqyasının ilbəil genişləndirilməsi, eləcə də onların vaxtlı-vaxtında suvarılması, aqrotexniki qulluq göstərilməsi işlərində “Naxçıvan Yaşıllaşdırma Xidməti” publik hüquqi şəxsin fəaliyyəti danılmazdır. Bu məqamda onu da, xüsusilə qeyd etmək lazımdır ki, əvvəllər muxtar respublikada müxtəlif tinglərə və gül kollarına olan tələbatın bir hissəsi idxal hesabına ödənilirdi. Bu isə həm maddi xərclərə, həm də vaxt itkisinə yol açırdı. Lakin “Naxçıvan Yaşıllaşdırma Xidməti” publik hüquqi şəxsin tingçilik sahəsi üçün yeni kompleksin tikilməsi və “İqlim otağı”nın yaradılması idxalın qarşısını almaqla yaşıllaşdırma işlərinin həm keyfiyyətinə, həm də kəmiyyətinə əsaslı təsir göstərərək bu sahədə ümumi inkişafa töhfələr verir.

2021-ci ildə də aid təşkilatlar, sakinlər tərəfindən yaşıllaşdırma tədbirlərinə xüsusi diqqət göstərilib. Naxçıvan Muxtar Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin xətti ilə ötən il 38,3 hektar sahədə yeni meyvə və üzüm bağları salınıb, 50,7 hektarda tinglə bərpa, 187 hektarda şırım üsulu ilə toxumla əkin, 4 hektarda toxmacarlıq və qələm köklənməsi işləri görülüb, yeni yaşıllıqlar, ümumilikdə, 280 hektar ərazini əhatə edib, 54 min 724 müxtəlif ting torpağa basdırılıb, 2725 kiloqram yabanı meyvə toxumlarından istifadə olunub. “Naxçıvan Yaşıllaşdırma Xidməti” publik hüquqi şəxsin əməkdaşları tərəfindən isə bu günədək şəhərimizdə 978 hektar ərazidə yaşıllıqlar salınıb ki, bunun da 8,3 hektarı 2021-ci ilin payına düşür. Həmçinin ötən il 27 hektar ərazidə bərpa işləri görülüb, yaşıllıq zonalarına aqrotexniki qulluq da diqqətdə saxlanılıb.



Dünənimizin acı həqiqətlərinə işıq salan “Söyüdlü arx”ın harayı” məqaləsindəki ürəkağrıdan mənzərələrdən biri də yaz aylarında yeni tinglər salınması işinin düzgün təşkil edilməməsi, iməciliklərin unudulmasıdır. Digər xoşagəlməz hallar kimi bu problem də artıq öz həllini tapıb. İllər öncə təməli qoyulan iməciliklər sayəsində insanlar indi canla-başla təbiətə qulluq, yaşıllıqlara qayğı göstərirlər. Hər il erkən yazdan başlayaraq Ali Məclis Sədrinin şəxsən iştirakı ilə dövlət, özəl təşkilatların nümayəndələri, muxtar respublika sakinləri şənbə günləri kütləvi iməciliklər keçirir, minlərlə ağac və gül kolları əkilir, bağlar salınır, yaşıllıqlara aqrotexniki qulluq göstərilir. Cari ildə də yaz-tarla işləri, xüsusilə diqqətdə saxlanılıb, bu məqsədlə fevralın 25-də Naxçıvan Muxtar Respublikasında təsərrüfat işlərinə hazırlıq və qarşıda duran vəzifələr barədə müşavirə keçirilib, Ali Məclisin Sədri tərəfindən bir sıra təşkilatlara müvafiq tapşırıqlar verilib. Qeyd olunub ki, muxtar respublikada ətraf mühitin qorunması sahəsində ardıcıl tədbirlər görülür, yaşıllıqlar artırılır. Ekologiya və Təbii Sərvətlər Nazirliyi yerli icra hakimiyyətləri ilə birlikdə bu il də yeni yaşıllıq zolaqlarının və meyvə bağlarının salınması, eləcə də bərpa əkinləri üçün hazırlıqlar görməli, hava şəraitinə uyğun olaraq yaşıllaşdırma tədbirlərinə başlanılmalıdır. Yaşıllaşdırma tədbirlərində ting tələbatı yerli imkanlar hesabına ödənilməli, Ekologiya və Təbii Sərvətlər Nazirliyi və “Naxçıvan Yaşıllaşdırma Xidməti” publik hüquqi şəxs bu sahədə tədbirlərə diqqəti artırmalı, tingçilik təsərrüfatlarında hazırlıqlara başlanılmalıdır.

Qarşıya qoyulan vəzifələrin icrası ilə bağlı artıq həmin işlərə başlanılıb. Qeyd edək ki, Ekologiya və Təbii Sərvətlər Nazirliyinin xətti ilə yaz dövründə 13 hektarda meyvə bağı, 21 hektarda bərpa, 2 hektarda toxmacarlıq və qələmköklənməsi, 80 hektar sahədə şırım üsulu ilə toxumla əkin olmaqla, ümumilikdə, 116 hektar ərazidə yaşıllıq tədbirlərinin həyata keçirilməsi nəzərdə tutulub. “Naxçıvan Yaşıllaşdırma Xidməti” publik hüquqi şəxs tərəfindən isə yaz aylarında 6 hektar ərazidə meyvə bağlarının salınması, 12 hektarda bərpa işlərinin aparılması planlaşdırılıb. Bundan başqa, publik hüquqi şəxs tərəfindən il ərzində rayonların da tələbatını ödəmək üçün 8700 həmişəyaşıl ağac tingi, 12 min gül və bəzək kolu, 9500 meyvə, 4680 meşə tingi ehtiyatı yaradılıb. Həmçinin payızda əkilməsi nəzərdə tutulan 16 min həmişəyaşıl, 57 min meyvə, 20 min meşə tinginin toxumu yerə basdırılıb.

“Söyüdlü arx”ın harayı” yazısında yer alan *“Onsuz da muxtar respublikamızda təbii meşələr olduqca azdır. Hər nəfərə düşən yaşıllıq sahəsinə görə respublikamız dünyada axırıncı yerlərdən birini tutur”* sözlərini oxuyanda qeyri-ixtiyari çağdaş dövrümüzdə muxtar respublikamıza səfər



edən yerli və xarici qonaqların diyarımızda reallaşdırılan yaşıllaşdırma, təbiətə qulluq tədbirləri barədə söylədikləri yüksək fikirlər canlanır yaddaşımda. 2019-cu ilin fevral ayında Ordubad rayonunun Azadkəndində su təchizatı sisteminin inşası layihəsinin icrası məqsədilə muxtar respublikamıza gələn “Konstitusiya” Araşdırmalar Fondunun prezidenti Əliməmməd Nuriyevdən jurnalist həmkarımla birgə aldığımız müsahibədə Naxçıvanın ümumi sosial-iqtisadi inkişafı ilə yanaşı, diyarımızın füsunkar yaşıllıqlar məkanına çevrilməsi ilə bağlı fikirlərini də qürur hissi ilə xatırlayıram: “Azərbaycanda yaşıllıqların orta göstəricisi 11 faiz olsa da, bu rəqəmin Naxçıvanda 20 faizə çatması sevindirici haldır. Halbuki 1994-cü ildə Naxçıvanda, demək olar ki, ağac yox idi, hamısı kəsilmişdi. Amma bu gün biz tamam başqa bir mənzərənin şahidi oluruq”.

Akademik Həsən Əliyev “Həyəcan təbili” kitabında yazırdı: *“Bir dəfə yolum çinar meşəsinə düşmüşdü. Gördüklərimdən ürəyim ağrıdı. Baxımsızlıq ucbatından ağacların yarpaqlarını həşərat yeyib çılpaqlaşdırmışdı. İri çinar ağaclarının koğuşunda isə naxırçılar ocaq qalayırdı”. Görkəmli təbiətşünas alimin ürəkyanğısı ilə dilə gətirdiyi naqis hallar muxtar respublikamızın timsalında çoxdan aradan qaldırılıb, bir vaxtlar naəlac insanların əlindən məhvə məhkum olan təbiət indi elə onların əməyi sayəsində gözəlləşir, təravətlənir. Qolu-budağı sındırılmış, “arzuları yarımçıq qalmış”, kimsəsiz, miskin görkəmli ağacların yerində hər il “gələcəyə inamla baxan” minlərlə fidanlar boy atır, yaşıllıq əraziləri kiçik meşəliklərə, böyük bağlara çevrilir. Bu gün təbiət qoynu həm də ilham mənbəyi, şəfa qaynağı kimi qonaqlarına yaşayıb-yaratmaq ruhu aşılayır. Bir vaxtlar “Söyüdlü arx”ın fəryad qoparan harayı indi şux qamətli gül-çiçəklə bəzənən bağçalarda, xiyabanlarda təravətli nəğmə çələnginə çevrilib, ana təbiətimizdə daha “Həyəcan təbili” deyil, “Hərəmiz bir ağac əkək” adlı birlik-bərabərlikdən ilhamlanan dirilik nəğməsi səslənir...*

**✍ Nail ƏSGƏROV**

***Görkəmli dövlət xadimi Heydər Əliyev ölkəmizə rəhbərliyinin hər iki dövründə milli və mənəvi dəyərlərimizin qorunmasına, gələcək nəsillərə ötürülməsinə ciddi önəm verir, bu dəyərlərə ehtiramla yanaşmağı hər bir azərbaycanlının vətəndaşlıq borcu hesab edirdi. Güclü qadağaların mövcud olduğu sovet dönəmində belə, ulu öndər bu istiqamətdə ölçüyəgəlməz işlər görüb. 1993-cü ildə ikinci dəfə siyasi hakimiyyətə gələn ümummilli liderimizin xalqımızın milli-mənəvi dəyərlərinin, onun adət-ənənələrinin dirçəldilməsi, xüsusən İslam mədəniyyəti nümunələri olan məscidlərin, tarixi-memarlıq abidələrinin, ziyarətgahların bərpası ilə bağlı tədbirlərin həyata keçirilməsi dahi rəhbərin İslami dəyərlərə ehtiramını göstərən parlaq misallardır. Artıq multikultural bir ölkə kimi tanınan Azərbaycanda hər bir dindara dini ayinləri icra etməyə hərtərəfli şərait yaradılıb. Onların müqəddəs dini ocaqları ziyarət etmələri diqqət mərkəzində saxlanılır, bu işin dövlət səviyyəsində təşkilinə ciddi önəm verilir.***

# Milli həmrəylik və dini-mənəvi birliyin təcəssüm etdiyi müqəddəs *Ramazan ayı*



2020-ci ilin tariximizə yazdığı yeni səhifələr içərisində işğaldan azad edilmiş torpaqlarımızda mövcud olan ibadət yerlərinin vəhşicəsinə dağıdılmasını, belə müqəddəs yerlərdən digər məqsədlər üçün istifadə edilməsini artıq bütün dünya bilir. Ulu öndər Heydər Əliyevin hər bir sahədə müəyyənləşdirdiyi siyasəti uğurla davam etdirən ölkə başçısı cənab İlham Əliyevin bu ünvanlarda olması, həmin obyektlərin yenidən qurularaq dindarların ixtiyarına verilməsi ilə bağlı tapşırıqları hər birimizi ürəkdən sevindirir. Artıq həmin ünvanlarda azan səsləri eşidilir. Bu, ölkəmizdə həm dini dəyərlərimizə, həm də hər bir müsəlmana göstərilən ən böyük qayğıdır.

Ümummilli liderimizin müəyyənləşdirdiyi bu xətt bu gün muxtar respublikamızda da uğurla davam etdirilir. İbadətçilər üçün yeni məscidlər tikilir, mövcud belə ünvanlar müasir standartlar əsasında təmir edilir, müqəddəs yerlərə ziyarətlər təşkil edilir. Müstəqillik illərində muxtar respublikamızda 169 məscid tikilib və ya yenidən qurularaq dindarların ixtiyarına verilib. Nuh Peyğəmbərin türbəsi, "Əshabi-Kəhf" Ziyarətgahı Dini-Mədəni Abidə Kompleksi və 3 imamzadə bərpa edilib. Bu gün muxtar respublika dindarları 214 məsciddən istifadə edir. 2018-ci ildə Naxçıvan şəhərinin İslam Mədəniyyətinin Paytaxtı seçilməsi də bu və digər belə amillərlə bağlıdır.

2022-ci il mart ayının 29-da Naxçıvan Muxtar Respublikasında dini-mənəvi dəyərlər sahəsində görülən işlər və qarşıda duran məsələlər barədə keçirilən müşavirə də qədim diyarımızda dini-mənəvi dəyərlərə böyük diqqət və ehtiram göstərilməsinin ifadəsidir. Müşavirədə Ali Məclisin Sədri deyib: ***"Bu gün Naxçıvan Muxtar Respublikasında dövlət-din münasibətləri dəyərlərimizə və qanunvericiliyin tələblərinə uyğun tənzimlənir, mənəvi dəyərlərin qorunub yaşadılması istiqamətində sistemli tədbirlər görülür. Müstəqillik illərində muxtar respublikada Dini Qurumlarla İş üzrə Dövlət Agentliyi, Naxçıvan Muxtar Respublikası Qazısı yanında Şura, Mənəvi Dəyərlər Fondu, hər rayonda Multikulturalizm və Dini Məsələlər üzrə Komissiyalar və dini icmalar yaradılmışdır. Həmçinin dini təhsil sistemi təkmilləşdirilmiş, "Naxçıvan" Universitetində Dinşünaslıq ixtisası açılmış, eyni zamanda dindarlar üçün kurslar təşkil olunmuşdur. Muxtar respublikada dini-tarixi abidələr də bərpa edilmiş, yeni məscidlər tikilmiş, din xadimlərinin sosial təminatı sahəsində müvafiq tədbirlər görülmüşdür. Bütün bunlar sağlam dini ideologiyanın formalaşmasına öz təsirini göstərmiş, dini təhlükəsizlik təmin olunmuşdur".***

Qeyd edək ki, digər dini ayinlər kimi Ramazan ayının da İslami qaydalara uyğun şəkildə keçirilməsi təmin olunub. Adıçəkilən müşavirədə də vurğulandığı kimi, hətta pandemiya dövründə belə, dini mərasimlərin icrası müəyyən məhdudiyyətlər nəzərə alınmaqla yerinə yetirilmiş, Ramazan bayramının da ayinləri muxtar respublikada fəaliyyət göstərən məscidlərdə ənənəvi İslam qaydalarına uyğun şəkildə icra olunmuşdur. Bu ayda iftar süfrələrinin açılması, dindarların bir araya gətirilməsi, şəhid və qazi ailələrinə, ahıl, xəstə və kimsəsizlərə, aztəminatlı ailələrə, əcnəbi vətəndaşlara və xüsusilə də xarici ölkələrdən gələrək muxtar respublikamızda ali təhsil alan tələbələrə Ramazan sovqatlarının verilməsi müqəddəs ayinlərimizin təbliğində mühüm rol oynayır.

Müqəddəs Ramazan ayını müsəlmanlar "on bir ayın sultanı" da adlandırırlar. Həmin ay müsəlmanlar Allah və din qarşısında vicdani borclarını daha dolğun ödəmək fürsəti əldə edir, mənəvi zənginliyin və əxlaqi kamilliyin nəfs üzərində qələbə sevincini yaşayırlar. İslam dininə görə oruc tutanlar Allahın sevgisini qazanmış olurlar. Ramazan ayı Allahı dərk etmək, ruhən təmizlənmək və Uca Yaradana yaxınlaşmaq ayıdır. Ramazan ayı insanlar arasında birlik və bərabərliyin, xeyirxahlıq və şəfqətin, Uca Yaradana və ilahi hikmətə bağlılığın təntənəsini nümayiş etdirir. Ümummilli liderimiz Heydər Əliyev deyirdi: ***"Ramazan ayı cəmiyyətimizdə həmrəyliyin, dini-mənəvi birliyin möhkəmləndirilməsi işinə xidmət edən, hər bir müsəlmanın, adət-ənənələrimizə riayət edən hər bir insanın qəlbində olan bayramdır. Bizim ənənələrimiz, mənəvi, milli, dini dəyərlərimiz ölməzdir və bundan sonra da yaşayacaqdır".***

Oruc Həzrəti Adəmdən (ə) bəri bütün peyğəmbərlərə və onların ümmətlərinə vacib buyurulmuş qədim ibadətdir. Məsələn, Həzrəti Nuh (ə) bayram günləri istisna olmaqla bütün ilboyu, Həzrəti Davud (ə) isə günaşırı oruc tutarmış. Bu barədə "Qurani-Kərim"də: *"Ey iman gətirənlər! Oruc tutmaq sizdən əvvəlki ümmətlərə vacib edildiyi kimi, sizə də vacib edildi ki, (bunun vasitəsilə) siz pis əməllərdən çəkinəsiniz!" ("əl-Bəqərə", 183)* – deyə bildirilir.

Həzrəti Peyğəmbər (s.a.v) belə buyurmuşdur: *"Ramazan ayı gələndə cənnətin qapıları açılır"*. Bu ibadət müsəlmanlara Uca Yaradan tərəfindən hicrətin ikinci ilində – şaban ayının on üçündə bəxş edilmişdir.

Ramazan ayı müsəlmanlar üçün çox müqəddəs və mübarək aydır. Çünki müqəddəs "Qurani-Kərim" bu ayda nazil olmağa başlamış, Həzrəti Məhəmmədə (s.a.v) Peyğəmbərlik bəxş edilməklə İslam dini meydana gəlmişdir. İnsanları pis əməllərdən çəkindirən və axirətdə cəhənnəm əzabından qoruyan oruc ibadətinin bu ayda vacib buyurulması "Qurani-Kərim"də də əksini tapmışdır: *"İnsanlara doğru yolu göstərən, bu yolu açıq dəlilləri ilə aydınlaşdıran və (haqqı batildən) ayıran (Quran) Ramazan ayında nazil edilmişdir. Aya (Ramazan ayına) yetişən şəxslər (bu ayı) oruc tutmalıdırlar; xəstə və ya səfərdə olanlar isə tutmadığı günlərin sayı qədər başqa günlərdə tutsunlar..." (əl-Bəqərə, 185)*

Orucluq, eləcə də insana nemətlərin qiymətini öyrədir. Oructutmada bir müddət dünya nemətlərindən uzaq olan şəxs yenidən onları əldə etdikdə sevinir, həm də Allaha şükür etməyi öyrənir. Bu ayin həm də insanı sağlamlaşdırır. Çünki on bir ay ərzində çalışan insanın orqanizmi orucluq vaxtı dincəldikdən sonra funksiyasını daha rahat yerinə yetirir.

Müasir tibb elmində də orucun faydaları barədə xeyli məlumatlar var. Fransız alimi, Nobel mükafatı qazanmış Aleksi Karel məsələ ilə bağlı fikrini belə bildirmişdir: "Orucluq müddətində orqanizmdə yığılmış qida maddələri işlənir, sonra isə onların yerinə yeniləri gəlir və vücudda təzələnmə baş verir. Bu və digər baxımdan oruc sağlamlıq üçün faydalıdır".

Bu məsələ ilə bağlı Rəsulullah (s.a.v) da hədislərində buyurmuşdur: *"Oruc tutun ki, sağlam olasınız"*.

Həddi-büluğa çatmış, əqli cəhətdən sağlam olan hər müsəlmana oruc vacibdir. Üzrsüz səbəbdən oruc tutmamaq günahdır və cəzası (kəffarəsi) vardır. Kəffarə bir gün bilərəkdən tutulmamış oruca görə iki ay ardıcıl oruc tutmaq və ya altmış yoxsulu doyuzdurmaqdır. Oruc tuta bilməyən əldən düşmüş və yaşlı şəxslər isə Ramazanın hər günü üçün fidyə verirlər. Fidyənin miqdarı fitrə qədərdir.

Onu da qeyd edək ki, Ramazan ayı bəzən 29, bəzən də 30 gün olur. Ay 29 gün davam edəndə də orucluq tam hesab edilir. Ən əsası həmin ayı bütünlüklə oruclu keçirməkdir. Necə ki Rəsulullah (s.a.v) doqquz Ramazan orucu tutmuş, onların dördü 29, beşi isə 30 gün davam etmişdir.

Oruc tutmağın məqsədi dini mükəlləfiyyəti icra etməklə Allahın əmrlərindən birini yerinə yetirməkdir. Bununla yanaşı, orucun əxlaqi və ictimai baxımdan da müəyyən fayda və hikmətləri vardır. 653-cü ildə İslam dininin könüllü qəbul edildiyi Təktanrıçılığın mərkəzlərindən biri olan qədim diyarımız Naxçıvanda sağlam dini etiqad və zəngin mənəvi dəyərlər sisteminin formalaşdırılması bu günün reallığıdır. On beşinci əsrdə tərtib olunmuş "Dünyanın İslam tarixi xəritəsi"ndə də Naxçıvan İslamın ən güclü dayaqlarından olan biri kimi göstərilib. Bunu həm də bugünkü dövlətçiliyimizə dayaq kimi görürük. Adıçəkilən müşavirədə Ali Məclis Sədrinin dediyi kimi: ***"Mənəvi dəyərlər güclü dövlətçilik, sülh və əmin-amanlıq olan yerdə formalaşır... o cəmiyyət sağlamdır ki, orada mənəvi dəyərlərə sahiblik vardır".***

Müşavirədə muxtar respublika rəhbərinin dini-mənəvi dəyərlərimizin yaşadılması və təbliği istiqamətində verdiyi mühüm tövsiyə və tapşırıqlar sırasında Ramazan və Məhərrəmlik aylarının fəzilətlərinə və dəyərlərimizə uyğun keçirilməsi məsələsi də yer almışdır ki, bu da muxtar respublikamızda İslami dəyərlərə, milli-mənəvi irsimizə dövlət səviyyəsində yüksək ehtiramın təcəssümüdür.

*Ramazan mərasimi dini-mənəvi dəyərlərimiz içərisində xüsusi yerə malikdir. Və bu gün hər bir naxçıvanlıda bu dəyərlərə güclü sahiblik hissi var.*

✍ **Muxtar MƏMMƏDOV**

## Naxçıvanda AFFA-nın uşaq futbol liqaları və "Koka-Kola Məktəbli Kuboku"nun mərhələ yarışları keçirilir



Uşaq və yeniyetmələr arasında futbolun təbliği və kütləviliyi, onların ustalığının yüksəldilməsi, klublarda hazırlanması və yığma komandalara cəlb olunması məqsədilə keçirilən turnirlərə bu gün start verilib. Gün ərzində "U-14 Liqası"nda ¼ final mərhələsinin qarşılaşmaları və "Koka-Kola Məktəbli Kuboku"nun ilk oyunu reallaşıb. Növbəti günlərdən etibarən "U-13", "U-12", "U-11" və "U-10" liqaları da start götürəcək.

Qeyd edək ki, reqlamentə uyğun olaraq turnirlər pley-off əsasında keçirilir və muxtar respublika üzrə qalib komandalar müvafiq liqaların final mərhələsinə vəsiqə əldə edəcək. Final mərhələləri Bakı şəhərində təşkil olunacaq.

***Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin mətbuat xidməti***

## Naxçıvan Muxtar Respublikasının Dövlət İmtahan Mərkəzi Naxçıvan Muxtar Respublikasının Dövlət Sosial Müdafiə Fondunda və dövlət mətbuat orqanlarında vakant vəzifələrin tutulması üçün müsabiqə elan edir

Müsabiqədə iştirak etmək istəyən şəxslər 2 aprel-2 may 2022-ci il tarixlərdə Naxçıvan Muxtar Respublikası Dövlət İmtahan Mərkəzinin internet portalında *(www.dim.nmr.az)* "şəxsi kabinet" bölməsinə daxil olaraq elektron müraciət formasını doldurmaqla qeydiyyatdan keçməlidirlər.

Namizədlər 90 manat ödəniş məbləğini "şəxsi kabinet" vasitəsilə bank kartları ilə ödəyə bilərlər. Digər halda həmin məbləğ Dövlət İmtahan Mərkəzinin "Naxçıvanbank" ASC-dəki bank hesabına (AZ50NAXB36015000024840000AZN) ödənməli və ödənişə dair qəbz həftənin iş günləri saat $9^{00}$-dan $12^{30}$-dək və $14^{00}$-dan $17^{30}$-dək mərkəzə təqdim edilməlidir.

Naxçıvan Muxtar Respublikasının dövlət mətbuat orqanlarında vakant vəzifələrin tutulması üçün esse imtahanı və müsahibə keçiriləcəkdir.

Namizəd bir neçə vakant vəzifənin tutulması üçün müraciət edə bilər.

Namizədlər elektron müraciət formasını doldurarkən iddia etdikləri vakant vəzifələrin tutulma şərtlərini nəzərə almalıdırlar.

Qeydiyyatdan keçməkdə çətinlik çəkən namizədlər Dövlət İmtahan Mərkəzinə gəlməklə müraciət edə bilərlər.

Maraqlananlar mərkəzin (036) 545-65-71 nömrəli əlaqə telefonu və ya *dim@nmr.az* elektron poçt ünvanı vasitəsilə ətraflı məlumat əldə edə bilərlər.

| Vəzifə kodu | Dövlət orqanı və struktur bölmə | Ştat sayı | Vəzifə |
|---|---|---|---|
| | **Naxçıvan Muxtar Respublikasının Dövlət Sosial Müdafiə Fondu** | | |
| 499603 | Şərur rayon şöbəsi. Sosial sığorta və fərdi uçot sektoru | 1 | baş mütəxəssis |
| 499605 | Şərur rayon şöbəsi. Sosial sığorta və fərdi uçot sektoru | 2 | aparıcı mütəxəssis |
| 499905 | Şərur rayon şöbəsi. Maliyyə-uçot sektoru | 1 | aparıcı mütəxəssis |
| 499906 | Şərur rayon şöbəsi. Maliyyə-uçot sektoru | 1 | mütəxəssis |
| 494905 | Ordubad rayon şöbəsi. Maliyyə-uçot sektoru | 2 | aparıcı mütəxəssis |
| 494906 | Ordubad rayon şöbəsi. Maliyyə-uçot sektoru | 1 | mütəxəssis |
| 493906 | Culfa rayon şöbəsi. Maliyyə-uçot sektoru | 1 | mütəxəssis |
| 495905 | Şahbuz rayon şöbəsi. Maliyyə-uçot sektoru | 1 | aparıcı mütəxəssis |
| 497603 | Sədərək rayon şöbəsi. Sosial sığorta və fərdi uçot sektoru | 1 | baş mütəxəssis |
| 497803 | Sədərək rayon şöbəsi. Pensiya təminatı sektoru | 1 | baş mütəxəssis |
| 497905 | Sədərək rayon şöbəsi. Maliyyə-uçot sektoru | 1 | aparıcı mütəxəssis |
| | **Cəmi:** | **13** | |
| | **"Naxçıvan Muxtar Respublikası Televiziya və Radio Verilişləri" Qapalı Səhmdar Cəmiyyəti** | | |
| 430302 | Xəbərlər redaksiyası | 1 | redaktor |
| 430502 | Təhsil və sosial məsələlər redaksiyası | 1 | redaktor |
| 430123 | Ordubad rayonu üzrə bölgə müxbiri | 1 | müxbir |
| 430124 | Culfa rayonu üzrə bölgə müxbiri | 1 | müxbir |
| 430126 | Şahbuz rayonu üzrə bölgə müxbiri | 1 | müxbir |
| 430127 | Sədərək rayonu üzrə bölgə müxbiri | 1 | müxbir |
| | **Cəmi:** | **6** | |
| | **Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin "Kanal 35" Televiziyası** | | |
| 298023 | Televiziya və radio verilişləri redaksiyası | 1 | müxbir |
| | **Cəmi:** | **1** | |
| | **Yekun:** | **20** | |

***İtmişdir***

Nəsrullayev Nəsrulla Bayram oğlunun adına olan avtomobilin texniki pasportu itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı

Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 14.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Ramiyyə Əkbərova
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1500. Sifariş № 278